# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

**Bakı şəhəri** **263/4** **26 may 2015-ci il**

**Sərbəst auditorlar və auditor təşkilatlarının 2014-cü ilin yekunu üzrə təqdim edilmiş hesabatlarına dair müvafiq icmalın hazırlanması barədə**

Auditorlar Palatasının 2015-2017–ci illər üzrə iş planının "Sərbəst auditorların və auditor təşkilatlarının 2014-cü ilin yekunu üzrə təqdim edilmiş hesabatlarına dair müvafiq icmalın hazırlanması" barədə 1.6-cı bəndinə uyğun olaraq, Analitik informasiya və təhlil şöbəsi (R.Cəfərli) tərəfindən hazırlanmış məruzəni müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Sərbəst auditorlar və auditor təşkilatları tərəfindən 2014-cü ilin yekunu üzrə təqdim edilmiş hesabatlarına dair müvafiq icmal" barədə məruzə nəzərə alınsın.
2. Bir sıra sərbəst auditorlar (Həsənov Pərviz, Ağayev Ramil, Alıyev Köçəri, Bəşirov Şərif, Əliyev Xaləddin, Eminov Otello, Gülməmmədov Şirxan, İsayev Telman, Musayev Adıgözəl, Bayramov Vəli, Əhmədov Hafiz, Pənahov Novruz, Tağıyev Vasif) və auditor təşkilatları ("İqtisadçı audit" MMC, "Zaman audit" MMC, "Audit Grup" MMC, Bakı şəhər auditor təşkilatı, "Tax, Audit & Konsaltinq Servis" MMC ) tərəfindən Auditorlar Palatası Şurasının 2009-cu il 26 yanvar tarixli 197/6 saylı "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin tövsiyə olunan minimum hədləri barədə" Auditorlar Palatası Şurasının 2005-ci il 23 dekabr tarixli 159/5 saylı qərarına əlavə və dəyişikliklər edilməsi haqqında" qərarının tələblərinə tam əməl etməmələri ilə bağlı nəzərlərinə çatdırılsın və xəbərdarlıq edilsin.
3. Təqdim olunmuş icmala əsasən məcburi auditdən keçmə faizinin aşağı olması ilə bağlı məcburi auditdən yayınmaya görə inzibati məsuliyyətin tətbiqi mexanizmlərinin müəyyən edilməsi istiqamətində tədbirlər davam etdirilsin.
4. Auditə dair maarifləndirmə, təbliğat-informasiya işini gücləndirmək və zəruri məlumatları KİV-də işıqlandırmaq məqsədilə, şəffaflığın təmin olunmasında və auditin mövcud problemləri və inkişaf istiqamətləri mövzularında mətbuatda mütəmadi olaraq materiallar dərc etdirilməsi işləri davam etdirilsin.
5. Aparatın İnformasiya texnologiyaları üzrə mütəxəssisi R.Ələkbərova tapşırılsın ki, icmalın və bu qərarın mətni Palatanın internet səhifəsində yerləşdirilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**